

*Məqaləyə bu başlığı təsadüfi vermirik. Şuşa rayon Qaladərəsi kənd musiqi məktəbinin iş şəraitini görəndən, Gülşən xanımla görüşüb söhbət edəndən və kollektivin uğurlarından xəbər tutandan sonra bu qənaətə gəldik. Demək, gen-bol şərait hələ qələbə deyil. Nailiyyət üçün ürəkdən çalışmaq, işini sevmək lazımdır. Necə ki, bunu haqqında söhbət açacağımız məktəb edir.*

# „Ürəyimiz geniş olsun..."

Bir gün əvvəl Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Zahid Abbasovla görüşdük. Etiraf etməliyik ki, qaçqın rayonların heç birində Şuşadakı qədər tədbir keçirilmir, iş görülmür. Dəfələrlə iş yerini dəyişmək, məskunlaşmaq üçün başqa bina axtarmaq məcburiyyətində qalmasına baxmayaraq harada olmasından asılı olmayaraq Zahid müəllim orada gözoxşayan, qəlbsevindirən səliqə-səhman yaradıb, həmin yerə Şuşa ab-havası gətirib. Respublikanın heç bir bölgəsində bu dərəcədə mehriban kollektivə rast gəlməzsən.

Nə isə, söhbətdən yayınmayaq. Qabaqcıl bir kollektivdən yazmaq istəyimizi öyrənincə Zahid müəllim Nizami rayonunun 8 km qəsəbəsindəki 33 saylı Bakı şəhər uşaq musiqi məktəbində fəaliyyət göstərən Qaladərəsi məktəbini məsləhət bildi.

Məktəbə Gülşən xanım rəhbərlik edir. Gülşən Misir qızı Əzizova 1962-ci ildə Şuşada anadan olub. Nəvvab adına musiqi texnikumu və Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının fortepiano sinfini bitirib.

- Bu gün fəxrlə deyə bilərəm ki, tanınmış bəstəkar Cahangir Qarayevin sinfini bitirmişəm, Gülşən xanım sevimli müəllimindən söhbət açır. Onun mənə nə qədər köməyi, qayğısı olub. Ümumiyyətlə, o hamımıza diqqətlə yanaşıb. Gözəl müəllim, gözəl bəstəkar olduğu qədər də gözəl insandır.

Akademiyanı bitirdikdən sonra bir vaxt oxuduğum Nəvvab adına Şuşa musiqi texnikumunda müəllim işlədim. Məlum hadisələrlə bağlı Şuşanı tərk edəndən sonra hərəmiz bir yerdə məskunlaşdıq. Məktəbimiz 1992-ci ildən burada fəaliyyət göstərir. Mən ona 1999-cu ildən rəhbərlik edirəm.

Məktəbimizdə 200 nəfər şagird təhsil alır. Onların tərbiyəsi ilə 57 müəllim məşğul olur. Burada fortepiano, skripka, xanəndəlik, qarmon, tar və s. ixtisaslar üzrə tədris işi aparılır. Yeni bir şöbə də açmışıq – vokal sinfi.

Qabaqcıl müəllimlərimiz çoxdur. Öncə Arzu Babayeva və Nizami Əliyevin adlarını çəkmək istərdim. Onların rəhbərliyi altında uşaqlar xor üzrə qalib gəlib və mükafatlandırılıblar. Respublika üzrə müsabiqədə üç dəfə birinci yerə çıxaraq fəxri fərmana layiq görülüblər. Bu mənada Dövlət Filarmoniyasındakı çıxış daha yaddaqalan olmuşdur. Xanəndəlik şöbəsinin müəllimi Sevinc Sarımova haqqında da yüksək fikir söyləməliyəm. Onun şagirdləri də müsabiqələrdə həmişə fərqləniblər. Turan Eldarov Moldovada keçirilən müsabiqədə qızıl medala layiq görülüb. «Kainat» muğam festivalında «Qran-Pri» ilə mükafatlandırılıb. Astara muğam müsabiqəsində də ikinci yerə çıxıb.

Qabaqcıl müəllimlərimizdən istərdim ki, Ülviyyə Əliabbasova, Lətafət Rəhimova, İradə Əliyeva, Vüqar Abdullayev, Rizvan Fərzəliyev, Sevda Qazıyeva, Cəmilə Məmmədova və başqalarının adlarını da qeyd edəsiniz.

İstedadlı uşaqlarımıza gəlincə beləleri çoxdur. Amma skripka sinfinin şagirdi Toğrul Əliyev onların hamısından fərqlənir. Keçən il respublika müsabiqəsində 3-cü yerə çıxdı. Dövlət Filarmoniyasında çıxışı o qədər xoş təsir bağışladı ki, hansısa səfirliyin nümayəndəsi özünü unudaraq bir dizi üstə durub onu alqışlayırdı: «Bu uşağın çox parlaq gələcəyi var». Biz hörmətli nazirimiz cənab Əbülfəs Qarayevə müraciət etmək istəyirik ki, Toğrula Prezident təqaüdü verilməsi üçün məsələ qaldırılsın.

Dövlət Kamera Orkestri ilə yaxşı əlaqəmiz var. Birgə tədbir keçiririk. Qonaqlarımız çox olur. Sağ olsun, xalq artisti Teymur Göyçayevin çox qayğısını görürük.

Romanıdakı çıxışımız, xoşbəxtik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin, onun xanımı millət vəkili Mehriban Əliyevanın xoşuna gəldi.

Sonra Baş nazirin müavini Əli Həsənov və Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənov bizi qəbul etdi, qiymətli hədiyyə və pul mükafatı verdilər.

***Bütün bu diqqət və qayğı bizi daha səylə çalışmağa səsləyir. Doğrudur, yerimiz dardır. Odur ki, bazar günləri də daxil olmaqla gecə saat 9-dək işləyəsi oluruq. Təki ürəyimiz geniş olsun. Bunlar hamısı müvəqqəti çətinliklərdir...***

**Bahar ASLANOVA**









*İstedad bulağa bənzəyir. Nə qədər ağzını qapasan da özünə yol tapır, başqa bir yerdə poqquldayır, ətrafına adamlar yığır, məşhurlaşır. Toğrul Əlili də belə istedadlarımızdandır. Valideynləri, uşaq musiqi məktəbinin müəllimləri Əhməd Əliyev və Nailə Vəzirovanı dinlədikdə heyrətlənməyə bilmirsən.*

# Sabaha boylanan ümid

Hələ iki yaşından anasının köməyi ilə pianinoda müəyyən mahnılar öyrənməyə başlayıb. Çox keçməyib ki, evdə diqqətini bir skripka yazısı çəkib. Buna o qədər aludə olub ki, sonda alət olmadığından tozsoranın çubuqlarını qolları üstünə qaldıraraq uşaq təxəyyülü ilə müxtəlif «skripka havaları çalıb.»

Uşaqlarının marağını nəzərə alaraq onu Bakıda 33 saylı musiqi məktəbində məskunlaşıb fəaliyyət göstərən Şuşa rayon Qaladərəsi kənd uşaq musiqi məktəbinə gətiriblər. İlk müəlliməsi Sevil Babaşova, sonra Aida İbişova, və Mahirə Tağıyeva olub.

ANS telekanalındakı çıxışı uğurlu olub. Onu müxtəlif məktəblərə dəvət etsələr də Şuşa məktəbi evə nisbətən yaxın olduğu üçün orada qalıb. Xalq artisti Səyavuş Kərimi və digər görkəmli sənətkarların verdiyi yüksək qiymət Toğrulu daha da ruhlandırıb. Müxtəlif müsabiqələrə qoşulub, fəxri 2-ci yeri tutub. Hər il kamera orkestri ilə konsertlər verib. Xalq artisti Teymur Göyçayevin uşaqlardan təşkil olunmuş ansamblına dəvət alıb. Rayonun bütün tədbirlərində yaxından iştirak edir. Paqaninin, Q.Qarayevin və digər dünya şöhrətli sənətkarların əsərlərini səsləndirib və tamaşaçıların dərin rəğbətini qazanıb.

Toğrul yalnız skripkada deyil, həm də tütək, pianino, tar və qarmonda da kamil çalır. Onun hələ 14 yaşı var. Qarşıda Toğrulu nə qədər nailiyyət gözləyir. Sabahın böyük musiqiçisi olacaq, Azərbaycan mədəniyyətini dünyada təmsil edəcək Toğrul Əhməd oğlu Əliliyə bu nəcib işində uğurlar diləyirik.

**E. ƏLİYAROVA**